**DÖVLƏT İNVESTİSİYALARI ÜZRƏ KADR POTENSİALININ GÜCLƏNDİRİLMƏSİ LAYİHƏSİ (Kredit №4595AZ)**

**ISO STANDARTLARI ÜZRƏ TƏLİMİN TƏŞKİLİNƏ DAİR**

**MARAQLARIN İFADƏSİ ÜÇÜN DƏVƏT**

Azərbaycan Hökuməti və Beynəlxalq İnkişaf Assosiasiyası arasında imzalanmış 4595AZ nömrəli Maliyyələşdirmə Sazişinə əsasən Dövlət İnvestisiyaları üzrə Kadr Potensialının Gücləndirilməsi Layihəsi həyata keçirilir. Layihənin İcraçı Agentliyi kimi Təhsil Nazirliyi təyin edilmişdir. Layihə üçün ayrılmış vəsaitin bir hissəsinin "ISO Standartları üzrə təlim"in maliyyələşməsinə sərf edilməsi nəzərdə tutulub.

**Təlim 3 mövzunu əhatə edir:**

1. Keyfiyyətin İdarəolunması Standartları (QMS-9001)
2. Ətraf Mühitin İdarəolunması üzrə Keyfiyyət Standartları (EMS-14001)
3. Əmək Gigiyenası və Təhlükəsizliyin İdarəolunması Keyfiyyət Standartları (OHSAS 18001)

**Təlimlərin məqsədi** iştirakçıları ISO Standartları ilə tanış etməkdir.

**Təlim təchizatçısı üçün ixtisas tələbləri:**

Təlim təchizatçısı ISO Standartları üzrə təlimlər keçirmək potensialı olan və bu standartların icrasında və auditində uğur qazanmış və geniş təcrübəyə malik olan nüfuzlu şirkət olmalıdır. Təchizatçı müvafiq yerli qanunvericilik üzrə biliyə və səriştəyə malik olmalıdır. Şirkətin təlimçiləri tələb olunan təhsil ixtisas tələblərinə cavab verməli və ISO Standartları üzrə ən azı 5 illik təcrübəyə malik olmalıdır. Azərbaycanda təcrübəyə və Azərbaycan və ya ingilis/rus/türk dillərini bilən heyətə malik olan şirkətə üstünlük verilir.

**İcra müddəti:** mart – iyun 2011-ci il

Təhsil Nazirliyi müvafiq şirkətləri qeyd olunan təlimin həyata keçirilməsinə maraqlarını bildirməyə dəvət edir. Xidmətlərə maraq göstərən şirkətlər ixtisas tələblərinə cavab verdiklərini təsdiq edən aşağıdakı məlumatları və sənədləri **2011-ci il fevralın 21-nə qədər** aşağıdakı ünvana təqdim etməlidirlər:

- müraciət məktubu;
- yerinə yetirilmiş müvafiq xidmətlərin təsviri;
- müvafiq bacarıq və təcrübəyə malik olan heyət haqqında məlumat;
- nizamnamə.

Şirkət Dünya Bankının "Borcalanlar tərəfindən məsləhətçilərin seçimi və işə götürülməsi qaydaları"na əsaslanan *Məsləhətçinin Keyfiyyət Göstəricilərinə* dair satınalma metodu ilə seçiləcəkdir.

Əlavə məlumatları iş günləri ərzində saat 09.00-dan 18.00-dək aşağıdakı ünvandan əldə etmək mümkündür:


Azərbaycan Respublikasının Təhsil Nazirliyi,

Layihənin Əlaqələndirmə Qrupu,

AZ1008, Bakı şəhəri, Xətai prospekti, 49.

Əlaqələndirici şəxs: Elvin Rüstəmov

Əlaqə telefonları: 496-37-59, 496-37-60; faks: 496-93-68.

Email: erustamov@ultel.net